


**Avro – 2020-nin qrup mərhələsinin iyunun 22-də keçirilən D kvartetinin Çexiya – İngiltərə və Xorvatiya – Şotlandiya qarşılaşmaları haqqında dünənki yazımızda məlumat versək də, matçlar gec başa çatdığından nəticələr haqqında məlumat verə bilməmişdik. Ötən yazımızda qeyd etdiyimiz kimi, hər iki matç həqiqətən əsl idman mübarizəsi şəraitində keçdi.**

# İngiltərə millisi 3 turda 2 qolla pley-offda

İngiltərə millisi ilə Çexiya yığma komandası arasında keçiriləcək qarşılaşma haqqında əvvəlcədən mediada müxtəlif versiyalar irəli sürülürdü. Onlardan biri də ondan ibarət idi ki, İngiltərə təmsilçilərinə Çexiya üzərində qələbə qazanmaq üçün var qüvvəsini sərf etməyə dəyərmi və ya əksinə? Bu versiyaların meydana gəlməsinə səbəb, qrupda qalib gələcək komandanın ölüm qrupunda mübarizə aparan komandalardan biri ilə qarşılaşacağı idi. Amma D qrupunda ikinci yeri tutan komanda 8/1 finalda E qrupunun (İspaniya, İsveç, Slovakiya və ya Polşa) ikincisi ilə qarşılaşacaq. Deməli çətindir, lakin istənilən komanda Fransa, Almaniya və ya Portuqaliya kimi güclü yığma komandalardan biri ilə qarşılaşmanı daha sonrakı mərhələyə saxlayardı.

Peşəkar idman tarixində çox hadisələr olub ki, komandalardan birinə erkən mərhələdə məğlub olmaq faydalı olub. Ona görə də, İngiltərə və Çexiyanın qalibiyyəti yalnız onların ziyanına olardı. Heç kim vaxtından əvvəl ölüm qrupu ilə üz-üzə gəlməyi arzulamır.

Lakin oyunun ilk dəqiqələrindən göründü ki, nə İngiltərə, nə də Çexiya oyuna məğlubiyyət üçün çıxıb. İngilislər meydana ən gənc heyətlə çıxmışdılar. Oyunçuların orta yaş həddi 25 il 31 gün hesablanırdı. Bu "şirlərin" Avro və Dünya çempionatlarında iştirak etdikləri tarix ərzində meydana çıxardıqları ən gənc heyət idi. Oyun ingilis futbolçuların baş məşqçisi Qaret Sautqeyt üçün də əlamətdar idi. Sautqeyt birinci adam idi ki, futbolçu karyerasında olduğu kimi, məşqçi kimi də özünün 57-ci matçına çıxmışdı. Qarşılaşmanın gedişindən görünən o idi ki, təkcə buna görə "şirlər" FIFA-nın "istənilən oyunun məqsədi qalib gəlməkdir" qaydasına əməl etmək üçün meydandadırlar.





Oyunun ilk dəqiqələrində İngilis komandası hücuma atıldı. İkinci dəqiqədə Rahim Sterlinq hesabı açmağa çox yaxın oldu. Lakin onun aşırma zərbə ilə qapıçının başının üstündən atdığı top dirəyə dəyib kənara çıxdı. Amma matçın ilk qolunu gözləmək də uzun çəkmədi. Cek Qriliş topu qapının uzaq küncünə göndərdi. Lazımı vaxtda lazımı yerdə olan Rəhim Avro –2020-də ikinci qoluna imza atdı. 26-cı dəqiqədə ingilislərin kapitanı Keyn hesabı artırmaq üçün əla imkan qazandı. Lakin çexlərin qapıçısı sayıq tərpəndi.

Çexlər yalnız ikinci hissənin ikinci yarısında fəallaşdılar. Artıq onlara məlum olmuşdu ki, xorvatlar Şotlandiya üzərində böyük hesabla qələbə qazanırlar və bu da Çexiya millisini qrupun üçüncü pilləsinə endirirdi. Çexiya millisi bir neçə qol vəziyyəti yarada bildi. Tomaş Qoleş və Tomaş Souçek fərqlənməyə yaxın oldular. İngiltərə millisi birinci oyunda olduğu kimi matçın ikinci hissəsində arxayın və daha darıxdırıcı futbol oynamağa başladılar. Topa yiyələnməkdə üstünlüyü əldən verməyən "şirlər", oyundankənar vəziyyətdən vurulan qol istisna olmaqla, qapıya bir zərbə belə endirmədilər. Hesab dəyişmədən İgiltərə millisi 1-0 qalib gələrək qrupun lideri kimi pley-offa yüksəldi.

Maraqlıdır ki, Qaret Sautqeytin komandası Avro – 2020-nin qrup mərhələsində cəmi 2 qolla fərqləndi. Bu, Avropa çempionatının tarixində qrup mərhələsində qalib gələn komandalar arasında ən pis nəticədir. Beləliklə, İngiltərə millisinin qapıçısı Cordan Pikford ingilislərin tarixində, böyük turnirlərin qrup mərhələsində qapısından qol buraxmayan ikinci qolkiper oldu. Bu nailiyyətə 1966-cı il Dünya çempionatında ingilislərin qapıçısı Qordon Benks nail olmuşdur. O zaman İngiltərə yığma futbol komandası turnirin qalibi olub. Görək bu dəfə də ingilislər bu tarixi nailiyyəti təkrarlaya biləcəklərmi?



## Avro – 2020-nin ən yaşlı qoleadoru Xorvatiyanı finala çıxardı

Paralel keçirilən Xorvatiya – Şotlandiya matçını çempionatın qrup mərhələsinin ən gərgin və maraqlı qarşılaşmalarından biri hesab etmək olar. Xorvatların aramsız hücumları ilə başlayan oyunun 17-ci dəqiqəsində balakanların oyunçusu Nikola Vlaşiç rəqib qapısının aşağa küncünə vurduğu möhtəşəm zərbə ilə hesabı açdı, Xorvatiya –1, Şotlandiya – 0. Bu Avro – 2020-yə çox pis başlayan xorvatlar üçün çox mühüm qol idi.

Lakin Xorvatiya millisinin qarşılaşmadakı liderliyi yalnız 25 dəqiqə sürdü. Şotlandiyalı futbolçu Kallum Makqreqor eynən Vlaşiç kimi rəqib qapısının aşağı küncünü hədəfə alıb güclü zərbə endirdi və hesabı bərabərləşdirdi.

İkinci hissənin əvvəlində Şotlandiya millisinin fərqlənmək və hesabda irəli çıxmaq üçün daha bir şansı oldu. Lakin Con Makqin topu qapı dirəyinin kənarından vurdu. Amma "Real Madrid" klubunun canlı əfsanəsi Luka Modriç səhv edə bilməzdi. Onun Devid Marşallın qoruduğu qapının sol küncünə endirdiyi zərbəni qolkiper qaytarmaqda aciz qaldı. Qol, 2 – 1. Ancaq bu hesab xorvatların ikinci yerə çıxıb birbaşa 8/1 finala yüksəlməsi üçün kifayət etmirdi. Onlara daha bir qol vurmaq lazım idi. Bu mühüm vəzifəni isə yenə Luka Modriçin əla ötürməsi ilə İvan Perişiç yerinə yetirdi.

Ümumiyyətlə, Luka Modriç Avro – 2020-nin 3-cü turunda Şotlandiya komandasının qapısına qol vurduğu gün onun 35 yaş 286 günü tamam olurdu. Bu, Luka Modriçə Avropa çempionatının final mərhələsində milli komandaların heyətində ən yaşlı qoleador olmağa imkan verdi. Eyni zamanda Modriç xorvatların Avropa kubokları tarixində ən gənc qol vuran oyunçusudur. Avro – 2008-də o, Avstriyanın qapısına qol vuranda onun yaşı 22 il 273-gün idi.

Beləliklə D qrupunda 8/1 finala birinci yerdən İngiltərə millisi yüksəldi. Çexiya 4 xal toplasa da qolların nisbətinə görə Xorvatiyadan geri düşdü və 3-cü yerə endi. Amma buna baxmayaraq, çexlər qrup mərhələsində topladığı xallara görə üçüncü yerdən də pley-offa yüksələ biləcəklər. Çünki onların turnir cədvəlindəki xalları öz qruplarında 3-cü yeri tutan Ukrayna və Finlandiyanın topladıqları xaldan çoxdur. Lakin, uzun illərdən sonra azarkeşlərinə Britaniya derbisini hədiyyə edən Şotlandların bəxti gətirmədi.





## Vəziyyətdən təcili çıxış yolu tapmalı

Dünən daha iki qrupda son turun 4 qarşılaşması ilə 8/1 finala kimlərin vəsiqə alacağına aydınlıq gətirildi. Ən gərgin, dolaşıq vəziyyət və maraqlı qarşılaşmalar vəd edən qruplardan biri E qrupu idi. Bu qrupda hələ hansı komandaların birbaşa 8/1-ə vəsiqə qazanacağı bəlli deyildi. İspaniya millisi Avro – 2020-nin ilk günlərindən qrupun favoriti hesab edilsə də hələlik heç nə ilə yadda qalmayıb. Luis Enrikenin yetirmələri mərhələnin ilk iki oyununda baxımlı oyun nümayiş etdirsələr də, aktivlərinə cəmi iki xal yazdıra biliblər. Nəzərə alsaq ki, İsveç yığma komandası artıq pley-offa vəsiqəni təmin edib, o zaman onların Polşa millisi ilə ən yaxşı halda heç-heçə oynayacağı istisna deyil. Bu zaman İspaniya millisinə vəziyyəti xilas etmək üçün mütləq qələbə lazımdır. İndi nə olursolsun, onlar qrupda ikinci olan inadkar Slovakiya millisinə qalib gəlməlidirlər.

Vacib faktlardan biri ondan ibarətdir ki, slovaklar uzaq məsafə qət etdikdən sonra ispanlara Sevilyada qarşılaşacaqlar. Əslində, İspaniya millisi faktiki olaraq bütün oyunları evdə keçirib. Buna baxmayaraq, doğma meydan amili onlara elə də böyük dəstək olmayıb. İki oyunda cəmi 1 qol vura biliblər. Topa sahib olmada Avro – 2020-nin rekorduna yenilənsələr də, çox az qol vəziyyəti yaradır və onları da qola çevirməkdə çətinlik çəkirlər.

Slovaklar isə Polşa millisi üzərində inamlı qələbə ilə nəyə qadir olduqlarını göstərə bildilər. Məhz bu oyunda qazanılan 3 xal Pavel Qapalın yetirmələrinə ümid verib. Slovakiyaya pley-offa çıxmaq üçün heç-heçə də bəs edir. İspaniya isə mütləq şəkildə qələbə qazanmalıdır ki, 8/1 final mərhələsinə yüksələ bilsin. Əks halda İspaniya millisi Avro –2020 ilə vidalaşmalı olacaqdır.

Tarix göstərir ki, belə başlanğıcla bir çox komandalar sonda çempion olurlar. "Diario AS" xatırladır ki, yeddi dəfə böyük turnirlərdə qrup mərhələsini iki heç-heçə ilə başlayan komandalar nəticədə çempion olublar. Ən çox da Afrika millətlər kubokunda. Elə 1982-ci il Dünya və 2016-cı ildə Avropa çempionatında da belə olub.

Təbii ki, İspaniya millisi bunlara bel bağlaya bilməzdi və vəziyyəti düzgün qiymətləndirib oyuna qələbə istəyi və qətiyyətlə başladı.

Elə ilk dəqiqələrdən Slovakiya millisinin qapısına aramsız hücumlar başladı. Oyunun 12-ci dəqiqəsində hücumlar deyəsən, öz nəticəsini verməyə yaxın idi. İspaniya matçda ilk qoluna rəqib qapısına təyin edilmiş 11metrlik cərimə zərbəsilə heç olmayan kimi yaxınlaşdı. Moratanın 11 metrlik nöqtədən qapının sol küncünə vurduğu topu Dubravka əla sıçrayışla dəf etdi. Hesab açılmadı: 0 – 0. İspanlar hər şeyə yenidən başlamalı oldular. Qarşılaşmanın 30-cu dəqiqəsində Sarabiya cərimə meydançasının yaxınlığından qapıya güclü zərbə endirdi. Qapı tirinə dəyən top hündürə qalxdı və qapının önünə düşməkdə olan topu çıxarmağa çalışan qapıçı onu birbaşa qapılarına vurdu. Beləliklə, Luis Enrikenin yetirmələrinin "səhvini" Slovakiya millisinin qapıçısı Dubravka "düzəltdi" və Avro –2020-nin beşinci, qolkiperlərin ikinci avtoqoluna imza atdı. İspaniya – 1, Slovakiya – 0.

Birinci hissəyə əlavə edilmiş vaxtda isə artıq İspaniya futbolçuları öz halal qollarına imza atdılar. Oyunun fəallarından olan Laport hamıdan hündürə tullanaraq başı ilə topu qapının doqquzluğuna göndərdi: 2 – 0.

İkinci hissədə ispanlar sanki əvvəlki iki oyunda vura bilmədikləri qolların əvəzini çıxırdılar. 55-ci dəqiqədə Albadan sol cinahdan cərimə meydançasında gözəl ötürmə alan Sarabiya dəqiq zərbə ilə hesabı 3 – 0 etdi. İspaniya hətta bu hesabdan sonra belə özü üçün sevimli, rəqib üçün başağrısı olan oyun üslubunu davam etdirərək, slovakiyalıları topsuz qoydu. 66-cı dəqiqədə meydana çıxan Ferran Torres bir dəqiqə sonra Sarbiyanın sağ cinahdan qapı meydançası önünə atdığı əla ötürməni dabanı ilə çox baxımlı qola çevirdi. Amma bu da son olmadı. Ardı-arası kəsilməyən növbəti hücumları növbəti dalğasında, 71-ci dəqiqədə Ferran Torresin qapı üzərinə qaldırdığı topu Kuçka öz qapısına vurdu: 5 – 0.

Paralel gedən oyun da gərgin mübarizə şəraitində davam edirdi. İsveç millisinin 2- ci və 59-cu dəqiqələrdə Forsberqlə vurduğu qollara, Polşa millisi Levandovskinin 61-ci və 84-cü dəqiqədə vurduğu qollarla cavab verdi. Lakin polşalılar bu hesabı qoruyub saxlaya bilmədilər. Oyuna əlavə edilmiş vaxtda İsveç millisinin ən yaxşılarından olan Klaesson komandasının 3-cü qolunu vurub, Polşa yığma komandasını məğlubiyyətlə barışmağa məcbur etdi.

Beləliklə, E qrupunda başa çatan üçüncü turun matçlarından sonra İsveç millisi 7, İspan milli komandası isə 5 xal toplayaraq 8/1finala birbaşa vəsiqə qazandılar. 3 xal toplayan Slovakiyanın taleyinə isə F qrupunda keçirilən oyunların nəticəsindən sonra aydınlıq gələcək. Kapitan Levandovskinin komandası isə Avro – 2020-yə əlvida deyib Vətənə yola düşdü.

**İlqar RÜSTƏMOV, "Xalq qəzeti"**